**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI**

**Bakı şəhəri** **№364/5** **09 aprel 2024-cü il**

**“Azərbaycan Respublikası Auditorlar Palatasının inzibati xətaya dair protokol tərtib etmək səlahiyyətinin icra proseduruna dair Təlimat” barədə**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın Formaları”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 iyul tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının aidiyyəti orqanların sifarişi əsasında hazırlanması, saxlanılması, uçotu və təqdim edilməsi Qaydaları”na uyğun olaraq Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) tərəfindən hazırlanmış “Azərbaycan Respublikasının Auditorlar Palatasının inzibati xətaya dair protokol tərtib etmək səlahiyyətinin icra proseduruna dair Təlimat”ın (bundan sonra – Təlimat) layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikasının Auditorlar Palatasının inzibati xətaya dair protokol tərtib etmək səlahiyyətinin icra proseduruna dair Təlimat” bəyənilsin (əlavə olunur).
2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) tərəfindən bu “Təlimat”ın tətbiqi və ona riayət edilməsi “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq təmin edilsin.
3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində bu “Təlimat”ın auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
4. Bu qərarın və “Təlimat”ın mətnləri Auditorlar Palatasının internet səhifəsində və “auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**